

Oqtay ABDULLA

30 iyul 2016

WWW.KASPI.AZ

## OĞLUMLA SÖHBƏT

Çox gördüm dünyada yaxşı-yamanı,
Tökülür arada yoxsulun qanı...
Sözünə düz çıxan, düzilqar hanı?
Yaxşıdan əl çəkib kəsmə aranı,
Ellərə könül ver, elini tanı,
Ellərə bir yanan ürəyin olsun,
Dar gündə yaxşılıq gərəyin olsun.

Dur şirin yuxudan sökülməmiş dan,
Halal nemətindən dad sən o başdan.
Torpağı hazırla, təmizlə daşdan,
Özünə güvənc ol, özünə inan,
Verəcək ruzini böyük Yaradan,
Görünən hər işdə əməyin olsun,
Süfrədə qoy halal çörəyin olsun.

Bir günəş nuru saç məhəbbətindən,
Qoy dastan bağlansın sədaqətindən,
Kərəm et əlsizə kəramətindən,
Heyranlıq duyulsun səxavətindən,
Gen ol cəhənnəmin qiyamətindən,
Qaranlıq o dünyan səhərin olsun,

## ÇALIŞ Kİ, BİR BELƏ TƏHƏRİN OLSUN

Biri ki, dost dedi, sədaqət eylə,
Hər sözə, söhbətə çox diqqət eylə.
Hikmətli sözünü min ayət eylə,
Deməərm bəsidir, kifayət eylə.
Çətində, dar gündə mərhəmət eylə,
Taqətin, dözümün, təpərin olsun,
Bir az da ziyanın, zərərin olsun.

Dərdə təslim olma, olarsan bihal,
Zirvəni yurd seçər özünə qartal.
Gördüyün hər işdən ruhlan, ilham al.
Canından can ayır, ürəklərdə qal,
Ucalmaq istəsən, bax belə ucal,
Xalqına xeyirin, bəhərin olsun,
Heykəlin, dastanın əsərin olsun.

Ömürdür, ağıldır verilir Haqqdan,
Əgər ki, zəhmətə qatlaşsa insan,
Çılpaq boz çölləri edər gülüstan.
Çalış ki, bir belə hünərin olsun,
Canında, qanında cövhərin olsun.

Gözəlləşir hər gün bizim bu Vətən,
Min coşqu, sevgiylə qabarsın sinən!
Əyilib torpaqdan bir daş götürsən,
Cilala o daşı elə et ki, sən,
Gördüyün hər işə desinlər əhsən,
Demərəm qəm-qüssə, kədərin olsun,
Ağır ol, batman gəl, ləngərin olsun.

## DEDİM

Bir dərd məni, gizlin-gizlin oyunca,
Qamətimi yaman günə qoyunca,
Yar görəydim camalını doyunca,
Bir tutaydı əllərindən əl, dedim.

Sevdi səni mahal, oba, o ellər,
Həsrətində qalıb səni sevənlər.
Uca boyun, zərif çöhrən, o tellər,
Yaraşıqdı qələm qaşa tel dedim.

Harda varsan ora gülşən, gül oldu,
Sənsiz keçən hər bir günüm il oldu.
Könül neyim, istəklərim dil oldu,
Gülənmirəm barı sən gül, gül dedim.

Gülüm, demə bu yuxudur yozumdur,
Bu nağılım, bu dastanım uzundur.
Səsim çatsa eşit canım dayan, dur,
Yandı bağrım kabab oldu, gəl dedim.
Bir tutaydın bu könlümü dilə sən,
Oqtay xəstə sən loğmanım, biləsən.
Bir çarə tap bülbülə sən, gülə sən,
İntizarı bu nisgili sil dedim.

## GEDƏK

Həsrətinə aylar, illər dözmüşəm,
Dönsün üzü bu həsrətin, dur gedək.
Baxdım sənə yanağına yaz gəlib,
Bağım, bağçam var qoynunda nar, gedək!

Yer oynasa o zirvədən daş gələr...
Gələn bəla birdən sənə tuş gələr!
Gedər bahar, payız gələr, qış gələr,
Basar qəfil, yollarını tar, gedək!

Ətirlisən, çox çəkmisən gülə sən,
Var üzündə Günəş nuru biləsən.
Ulduz, aymı, sən bənzərdə, eləsən,
Zülfün gecə, sinən bəyaz, qar, gedək!

Nədi dərdin, yoxsa düşdün üzəmi?
Yarmı tapdın, yoxsa yarın təzəmi?
Nəzər çəkdi, yoxsa gəldin gözəmi?
Bu həsrətə məndə dərman var, gedək!

Xudam çəkmiş Ay qaşına qələmi!
Dönə-dönə öldürürsən sən məni.
Ay can alan, can alırsan, beləmi?
İnsaf elə bu tilsimi qır, gedək!

Pərişanam, ahım sənə çatdımı,
Dönüb mənə o gözlərin baxdımı?
Taxtın yoxsa Süleymanın taxtımı,
Səltənətim, şan-şöhrətim, yar gedək.

Duman-çiskin bərləri almamış,
Bu taleyim, bəxtim məni danmamış,
Oktay nalan, vüsalına çatmamış,
El yanında etmə məni xar, gedək!